## Bitki sağlamlığı ilə bağlı həyata keçirilən tədbirlər

2021-ci ilin ötən dövrü ərzində Azərbaycana Rusiya Federasiyasından pomidor məhsulunda pepino mozaik virusuna görə 4, qonur qırışıqlıq virusuna görə 6, kartof məhsulunda qonur çürümə bakteriyasına görə isə 2 bildiriş göndərilib. Lakin əksər hallarda təsərrüfatlarda mövsümün bitməsi ilə əlaqədar məhsulun olmaması, habelə uyğunsuzluq aşkar edilən mal partiyalarının geri qaytarılmaması bildirişlərin araşdırılması zamanı faktların təsdiqi prosesini çətinləşdirib.

Pomidorla bağlı yalnız bir təsərrüfata bildiriş vaxtında göndərilib, dərhal müəssisədə monitorinq həyata keçirilərək nümunələr götürülüb, həm Agentlikdə, həm də xaricdə – Türkiyə Respublikasında laborator müayinələrə cəlb edilib və virus faktı öz təsdiqini tapmayıb. Virusla bağlı bildiriş gələn digər təsərrüfatlarda bitki qalıqlarının zərərsizləşdirilməsi, təsərrüfatların və istifadə edilən ləvazimatların dezinfeksiyası təmin edilib.

Eyni zamanda ölkə ərazisində bitki mənşəli virusların yayılmasının qarşısının alınması ilə bağlı cari ilin 7 ayı ərzində 200-dən çox pomidor təsərrüfatı və şitilxanada monitorinqlər aparılıb, götürülən nümunələrin laborator müayinəsi zamanı 1 müəssisədə pepino mozaik virusu aşkarlanıb və dərhal fitosanitar tədbirlər görülüb, şitillər Agentlik müfəttişlərinin iştirakı ilə yandırılaraq məhv edilib.